Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Vaxtilə Ermənistan təcavüzünü müdafiə edənlər bu gün Bakıda mühakimə olunan erməniləri himayə edir...

**2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən 44 günlük Vətən müharibəsinin nəticələri Azərbaycan dövlətinin milli gücünü, xalqımızın mübarizə əzmini - sarsılmaz həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan möhtəşəm qələbə qazanmaqla tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına nail oldu. Şübhəsiz, bu tarixi qələbə son 21 ilə yaxın müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun məntiqi nəticəsidir.**

Təbii ki, Azərbaycan bütün cəbhələrdə - istər döyüş meydanında, istər siyasi-diplomatik müstəvidə, istərsə də informasiya cəbhəsində mütləq qalibiyyət əldə etməklə tarix yazıb. Eyni zamanda, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə XXI əsrin müharibəsini aparmaqla mütərəqqi nümunə ortaya qoydu. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı hərbi məktəblərində Azərbaycanın təcrübəsi geniş tədqiq olunur, öyrənilir. Bu, Cənubi Qafqazın lider dövlətinin hərbi-siyasi qüdrətinin ifadəsidir.

### Ermənistanın hərbi əməliyyatları yalnız fiziki zərər verməklə kifayətlənməyib

Ölkəmiz həm də çox mühüm strateji presedentin əsasını qoydu. Belə ki, Azərbaycan 30 il mövcud olmuş Qarabağ münaqişəsini öz gücü ilə həll etməklə, həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını təmin etməyə müvəffəq oldu. Bu, heç şübhəsiz, dünya siyasi tarixinin çox əlamətdar hadisələrindən biri, eləcə də ədalətin və beynəlxalq hüququn təntənəsidir. Çünki bu qələbə, yalnız hərbi müstəvidə deyil, həm də Azərbaycanın müstəqilliyinin və suverenliyinin təmin edilməsi üçün əhəmiyyətli bir addım oldu. Azərbaycanın ərazi bütövlüyünü pozan Ermənistanın 30 illik işğalı nəticəsində yaranan gərginlik və təhdidlər 44 günlük müharibə ilə sona çatdı. Müharibə müddətində Ermənistanın həyata keçirdiyi bir çox qanunsuz hərəkət, beynəlxalq hüquq və insanlıq əleyhinə cinayətlər təşkil edib. Ermənistan Silahlı Qüvvələri tərəfindən törədilən bu cinayətlər, müharibə qanunlarına və ümumbəşəri prinsiplərə zidd olaraq, Azərbaycanın sülhə və insanlığa qarşı cinayətlərini təşkil etdi. Müharibə zamanı Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı hücumları baş tutub. Yalnız hərbi hədəflərin deyil, həm də mülki obyektlərin, evlərin, məktəblərin, xəstəxanaların bombardman edilməsi, bir çox sivil insanın ölümünə və yaralanmasına səbəb olub. Ermənistanın döyüş zamanı qadağan olunmuş silahları, o cümlədən ballistik raketləri və fosfor bombalarını istifadə etməsi, beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Bu silahların istifadəsi yalnız fiziki zərər verməklə qalmayıb, həm də müharibə sonrası ətraf mühitə və insanların sağlamlığına uzunmüddətli zərər vurub. Ermənistanın hərbi əməliyyatları yalnız fiziki zərər verməklə kifayətlənməyib, eyni zamanda psixoloji təzyiqlər yaradıb. Dinc sakinlər arasında qorxu və təlaş yaratmaq məqsədilə, mülki şəxslərə qarşı hədə-qorxu mesajları və təcavüzkar davranışlar da tətbiq edilib.



### Qərbin bəzi təmsilçiləri separatçı canilərin müdafiəsinə qalxıb

O da məlumdur ki, 2023-cü ilin 19-20 sentyabrında Qarabağda həyata keçirilən antiterror əməliyyatları nəticəsində əli azərbaycanlıların qanına batmış bir sıra separatçılar, separatçı quruma rəhbərlik edən şəxslər həbs edilib. Artıq neçə vaxtdır Bakıda erməni separatçıların məhkəməsi gedir. Məhkəmə çərçivəsində onların törətdiyi cinayətlər ifşa edilir, çoxsaylı şahidlər dindirilir. O cümlədən, konkret faktlar ortaya qoyulur. Ancaq biz görürük ki, çoxsaylı cinayətlər törətmələrinə rəğmən, prosesə beynəlxalq diqqət böyük deyil. Bir sıra Qərb dövlətləri, bəzi xarici qurumlar utanmadan onların azad edilməsi ilə bağlı çağırışlar edir. Halbuki, hələ məhkəmə hökmü elan edilməyib. Ancaq Avropa İttifaqının bəzi təsisatları, təmsilçiləri separatçı canilərin müdafiəsinə qalxıb. Maraqlıdır, Abxaziya, Dnestryanı separatçıları bir gün bu cür mühakimə olunsaydı, Qərb onlara münasibətdə analoji mövqe tutardımı?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının fikrincə, Bakıda erməni separatçılarına qahmar çıxan bəzi Qərb dairələrinin Azərbaycana münasibətdə riyakarlığı birinci dəfə deyil baş verir: "Deməyim odur ki, Azərbaycana münasibətdə ikili, riyakar yanaşma tarixən olub. Qərb zamanında postsovet ölkələrində mövcud olan separatçı qurumlara bəslədiyi sərt münasibəti Qarabağda erməni separatçılarına da göstərsəydi, ərazilərimiz 30 il işğal altında qalmazdı. Bütün bunlar azmış kimi, ABŞ 1998-ci ildən Qarabağdakı separatçılara humanitar yardım adı altında hər il milyonlarla yardım edirdi. Həmin ikili yanaşma bu gün başqa formada davam edir. Azərbaycan öz gücü hesabına ərazi bütövlüyünü və suverenliyini təmin etdi. İndi separatçıları mühakimə edir, amma bizə deyirlər onları azad edin. Halbuki, cinayətkar cəzalanmalıdır. Bu, bütün dünyada belədir. Təbii ki, Dnesteryanı, Abxaziya, Cənubi Osetiyada olan separatçılar bir gün mühakimə edilsələr Qərb fərqli mövqe sergiləyəcək. Deyəcəklər ki, həmin separatçılara ən sərt cəza verilsin. Çünki burada da xristian təəssübkeşliyi özünü göstərir. Ermənilər tarixən Qərb ölkələrinin və Rusiyanın əlaltısı olublar. Onlardan daim bir alət kimi istifadə edilib. Son nəticədə məğlub olublar, cəmiyyətləri bundan əziyyət çəkib. Tarixən erməniləri himayə edən dövlətlər bu gün də separatçı caniləri müdafiə etməklə məşğuldular. Ancaq bunun bir əhəmiyyəti yoxdur".

***Vidadi ORDAHALLI***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***